

# Qədimiliyini qoruyaraq yeniləşən Gəncə



**Odlar yurdunun ən qədim siyasi və mədəniyyət mərkəzi, ecazkar təbiəti və qonaqpərvər insanları olan bu Şeyx Nizami yurdu, davamlı və kompleks inkişaf mərhələsinə qədəm qoymuş, aparılan irimiqyaslı kompleks abadlıq-quruculuq işləri, möhtəşəm layihələrin icrası, sözün əsl mənasında şəhərin mənzərəsi qədimi ornamentlərini saxlamaqla gözəlləşmiş və yeniləşmişdir. Məhz bunun bariz nümunəsidir ki, ilk dəfə olaraq, Gəncə Avropanın Gənclər Paytaxtı seçildi, dünyəvi şəhərə çevrildi. Bütün dünya azərbaycanlıları bundan fəxr və qürur duydu. Artıq bu sahədə təcrübə toplamış Gəncə bu il də Müstəqil Dövlətlər Birliyinin Mədəniyyət Paytaxtı seçildi. Bu münasibətlə keçirilən tədbirdə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun İdarə Heyətinin həmsədri, Rusiya prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy Gəncənin SSRİ vaxtı əsasən sənaye mərkəzi kimi tanınmasına baxmayaraq, şəhərin tarixi, elm və incəsənətinin daim inkişaf etdiyini, indi isə möhtəşəm bir şəhərə çevrildiyini bildirdi, bu şəhərin dünyaya Nizami Gəncəvi kimi dahi şəxsiyyət bəxş etdiyini deyərək, elə bu göstəricinin şəhərin mədəniyyət paytaxtı olmasına kifayət etdiyini bəyan etdi.**

İndi Gəncənin ən gözəl vaxtıdır. Ətraf yamyaşıl qazonlara bürünmüş, onların arasından boylanan əlvan gül-çiçəklər şəhərə xüsusi gözəllik verərək, sakinləri riqqətə gətirir, hər yana təravət verir. Ana təbiətin səxavətindən pay almış Gəncə eli yaz aylarında bir başqa gözəllikdə olur, düzləri yaz boyunca yaşıl çəmənliyə sərilmiş qırmızı xalı kimi laləzara bürünür. Hərdən əsən səhər mehi isə çəmənliyi hərəkətə gətirir. Boyunlarını gah irəli, gah da geri əyən lalələr bir anda dalğalı dənizin ləpələri kimi özlərini çəmənliyin sahilinə atırlar. Göz oxşayan, könül rahatlayan bu mənzərəni seyr etdikcə insan ana təbiətin gözəlliyindən zövq alır. Çay boyunca uzanan zümrüd "meşələri", zərif çiçəkləri seyr etdikcə, ötüşən quşların bəstəsini dinlədikcə insanın duyğuları durulur, qəlbi həzin bir təbiət nəğməsinə köklənir. Uzun illər alaq basmış, parklar, xiyabanlar, çayın sahilləri, dünyada ən böyük parklar cərgəsində olan köhnə adı ilə desək "Xatirə parkı" dağılıb getmiş, sovetlər dövründən qalma heykəl və büstlər qırılıb korlanmış, suvarma sistemi sıradan çıxmış, ağaclar qurumuşdur. Son illər ümummili liderin adına layıq, möhtəşəm Heydər Əliyev mərkəzi, ecazkar təbiətə malik istirahət parkı, girişdə möhtəşəm "Zəfər tağı" ucaldılmışdır ki, buraya gələn qonaqlar və sakinlər bu açıq seyrangahdan şəhərin və füsunkar




Heydər Əliyev parkının mənzərəsini seyr edir. Əfsanəvi gözəlliyi ilə insanları məftun edən möcüzəli suni "göl", balaca fidanlar üçün fantastik əyləncə mərkəzləri yaradılmışdır.

**Tək Gəncədən deyil, regionlardan bu istirahət məkanına minlərlə sakinlər dincəlməyə gəlir, bu unikal mənzərəni seyr edir, məmnun qalır, ölkə başçısına minnətdarlıq edir. Cənab Prezident Gəncə şəhərinə növbəti səfəri zamanı görülən bu işləri yüksək qiymətləndirmiş və demişdir: "Gözəl bir göl, amfiteatr yaradılıbdır. Yəni bu, doğrudan da bir möcüzədir".** Gölün ətrafına nadir ağaclar və dekorativ kollar əkilmiş, yaraşıqlı oturacaqlarla təchiz olunmuşdur. Dünyanın beş ən böyük parkı arasında yer tutan, 450 hektar sahəsi olan möhtəşəm Heydər Əliyev park-kompleksinin ərazisində, uzunluğu 354 metr, eni 170 metr, dərinliyi 3 metr olan bu əfsanəvi "göl"ün içərisinə ən bahalı balıq olan "Yapon sazanı" buraxılmışdır.



Sinirsiz böyümə potensialı ilə insanları heyrətə salan bu balıq hamını məftun edir. Qədimiliyini qoruyaraq, yeniləşən Gəncənin çay boyunca yüksək zövqlə yeni salınmış füsunkar bulvar kompleksi, fantastik uşaq əyləncə mərkəzləri, ecazkar təbiəti olan parkda yan-yana düzülmüş möhtəşəm musiqili analoqu olmayan fontan kompleksləri sakinlərdə, qonaqlarda iftixar hissi oyadır. Çox az bir zaman kəsiyində Gəncə şəhərinin 2016-cı ildə Avropa Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar, şəhərdə 1,8 hektar torpaq sahəsində möhtəşəm "Avropa Gənclər Paytaxtı" parkı salınmış, mərkəzində hündürlüyü 5 metr olan əzəmətli "Gəncliyin qanadları" abidəsi ucaldılmış, parkın dizaynına xüsusi elementlər əlavə etməklə, zövqlü formalarla zənginləşdirilmişdir.

Nizami yurdunun cənnət məkan guşəsi - "Xan bağı" Gəncənin düz mərkəzində yerləşir. Bu yerlər ağac və gül növlərinin zənginliyinə görə Gəncənin Nəbatat bağı sayıla bilər. Burada nadir tapılan bitki cinsləri - Himalay sidri, yapon əzgili, Eldar şamı, hind qozu, bambuk, sərv ağacları və s. qayğı ilə mühafizə edilir. Yeddi hektar sahəni əhatə edən "Xan bağı" zəngin təbiət muzeyi, gəncəlilərin sevimli mədəniyyət və istirahət parkıdır. Prezident İlham Əliyev "Xan bağı"nda olarkən demişdir: "Xan bağı nəinki Gəncə üçün, bütün Azərbaycan üçün çox əziz və doğma bir yerdir. Sadəcə olaraq, gəzinti üçün, istirahət üçün bağ deyil, bizim milli tarixi sərvətimizdir".

Şəhər rəhbəri Elmar Vəliyev, yüksək zövqlə, az bir zaman kəsiyində uzun müddət baxımsız qalmış ərazini yenidən quraraq, füsunkar bir aləmə çevirdi... Yaraşıqlı xiyabanlar salındı, körpülər, keçidlər düzəldildi, istirahət guşələri yaradıldı, ecazkar su hovuzları, fantastik fəvvarələr quruldu, uşaqlar üçün əyləncə mərkəzi yaradıldı, yeni müxtəlif ölkələrdən gətirilmiş qiymətli incilərlə bəzədildi. "Xan bağı" təkcə gözəllik məskəni deyil, həm də şəhərin saf iqliminin mərkəzidir. Yayda qızmar günəşin, qışda soyuq küləklərin qarşısını alır. İlin hər fəslində gözəl, günün hər çağında səfalı, cazibədardır. Gəncənin bu cənnət məkan guşəsi - "Xan bağı", bir sözlə, bu yerlərin əsl gözəllik simvoludur.

Xüsusilə qeyd etmək yerinə düşər ki, Gəncəni çox zəngin və şərəfli tarixə malik olan, möhtəşəm, yaşı 4000-dən çox olan maddi-mədəniyyəti, tarixi abidələri və milli ornamenti saxlamaqla, analoqu olmayan komplekslərin inşası və bərpası ulu Gəncənin tarixinə, qızıl hərflərlə yazılan salnaməyə çevirilmişdir. Gəncə elə bir strateji ərazidə yerləşir ki, Qafqaza giriş məhz buradan keçir. Bu baxımdan burada aparılan yüksəliş, tərəqqi və son dərəcədə yüksək quruculuq işləri diqqəti çəkir. Bu gün paytaxt istiqamətindən şəhərə daxil olan hər kəs möcüzələr aləmi ilə üzləşir. Yolun sağ və sol tərəflərində ucaldılan rəmzi möhtəşəm və əzəmətli Gəncə Qala Qapıları - Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə Kompleksi bir növ şəhərin qədim tarixini özündə əks etdirir. Burada hündürlüyü 65 metrdən yuxarı olan əzəmətli dövlət atributu olan müqəddəs bayrağımız, ümummilli liderin əzəmətli abidəsi, müasir uslubda işıqlandırma sistemi, bir-biri ilə uzlaşan fəvvarələr, ətrafdakı yaşıllıqlar və təravətli gül-çiçəklər qalaya xüsusi görkəm, gözəllik verir. İrəlilədikcə 3 km uzunluğunda sağ və sol tərəfdəki yeniliklər və zövqlə işlənmiş memarlıq elementləri hər bir insana zövq verir.

Son altı ildə Gəncə şəhəri öz simasını xeyli dəyişib. Burada görülən işlər sakinlərin rahatlığı, onların asudə vaxtlarının daha səmərəli təşkili məqsədi daşımaqla yanaşı, qədimiliyini qoruyaraq müasirləşmiş Gəncənin gözəlliyinə əlavə çalarlar qatır. Mənbəyini əzəmətli Qafqaz dağlarından götürən Gəncə çayının sahilləri yazda xüsusilə gözəl olur. Təbiətin ılıq nəfəsi zirvəsi buludlara çatan, göydən nəm çəkən bu dağların qarını əridib Gəncə çayına qarışdıranda onun sahillərində füsunkar bir mənzərə yaranır. Əvvəlcə iti axınla dik yamaclar arasından sıyrılıb çıxan Gəncə çayı dar dərələrdə hirslə iri sal qayalara dəyib gurultu qoparır. Elə ki, dağlardan enən coşğun sular öz yatağına üz qoyur, Gəncə çayının da səsi dəyişib həzin bir nəğməyə çevrilir. Nəhayət geniş düzənliyə çıxan çay yatağı boyunca qıvrıla-qıvrıla axıb lal axınla əzəmətli Ana Kürün görüşünə tələsir. Çayın sahillərində bitən salxım söyüdləri, dərələr boyunca uzanan zümrüd "meşələri", zərif çiçəkləri seyr etdikcə ötüşən quşların bəstəsini dinlədikcə insanın duyğuları durulur, qəlbi həzin bir təbiət nəğməsinə köklənir. Yaz vaxtı aşıb-daşan, bu çay, şəhərin memarlıq simasında böyük rol oynayır. Şəhəri iki hissəyə bölən bu qədim Gəncə çayının sağ sahilində reallaşan bu nəhəng növbəti layihə - möhtəşəm "Gəncəçay" Park-bulvar kompleksi, sakinləri heyrətə salmışdır.

Əzəmətli çayın ətrafında yaradılan ecazkar bulvar, qədim Gəncə memarlığının ən müasir şəhərsalma və memarlıq nümunələri ilə zənginləşdirilmişdir. Çay boyunca yeni yaradılan bulvar kompleksində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, qazonlar arasından boylanan gül-çiçəklər ətrafa xüsusi təravət verir. Qeyri-adi oturacaqlar, quraşdırılmış gözəl fəvvarələr ərazinin füsunkarlığını daha da artırır. Görülən bu işlər sakinlərin və şəhərə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir. Yeni park, istirahət məkanı və guşələrin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması həm də Gəncənin daha da gözəlləşməsi işinin davamlı xarakter almasından və ümumilikdə şəhərin sosial-iqtisadi inkişafından xəbər verir.

Fevralın 17-də ölkə Prezidenti cənab İlham Əliyevin növbəti səfəri zamanı "Gəncəçay" Park-bulvar kompleksi ilə tanış olarkən bu işlərə xüsusi dəyər vermişdir. Dövlətimizin başçısına məlumat verilmişdir ki, bulvar kompleksinin uzunluğu 1,2 kilometrdir. İnşasına 2014-cü ildə başlanılan və ümumi sahəsi 34 hektar olan bu kompleksdə istirahət üçün hərtərəfli şərait yaradılıb, geniş işıqlandırma işləri görülüb, 15 fəvvarə və müxtəlif kompozisiyalı 10 heykəl quraşdırılıb. Çayın məcrasının hər iki tərəfində betondan ümumi uzunluğu 2,4 kilometr olan istinad divarı tikilib. Bulvarda Bayraq Meydanı, "Əli və Nino" kompleksi, Mətbuat evi, Kitab evi, Uşaq Əyləncə və Ticarət Mərkəzi, altımərtəbəli və yeddimərtəbəli üç yaşayış binası, müasir, dünya stan-




dartlarına uyğun üç kafe, restoran və kinoteatr, açıq havada fantastik attraksionlar və digər sosial obyektlər inşa edilmişdir ki, bunlara ecazkar bulvarın "mirvarisi" desək yanılmarıq. Burada 1,7 kilometr uzunluğunda velosiped yolu və iki velosiped dayanacağı inşa edilib, böyük monitor quraşdırılıb, bulvar kompleksində kanalizasiya, yağış suları ötürücüsü və içməli su təchizatı sistemi əsaslı şəkildə yenidən qurulub. Yüksək zövqlə inşa edilmiş kitab-satışı mərkəzindən oxucular istədikləri kitabı alıb, açıq havada, zövqlə salınmış yaşıllıq zolağında mütaliə edirlər. Ümumiyyətlə, bu bulvar memarlığın ən son nailiyyətlərini özündə əks etdirir. Azərbaycanda ilk dəfə olaraq, Qurban Səidin müəllifi olduğu, "Əli və Nino" əsəri əsasında hündürlüyü 3,5 metr olan əzəmətli heykəl ucaldılmışdır ki, Azərbaycan və gürcü xalqlarının dostluğuna və məhəbbətinə ithaf edən bu abidə Çin, Fransa və Gürcüstanda ucaldılmışdır. Bu abidənin möhtəşəmliyi və fərqi ondadır ki, heykəlin ətrafında süni tüstü effektləri verilmişdir ki, bu da aşiqlərin məhəbbətlərinin səmada uçması anlamına gəlir. Abidənin ətrafında yaradılmış 3 fəvvarə vizual olaraq göz yaşlarını xatırladır. Heykəl Şərq üslubunda, lakin modem formadadır. Ölkə Prezidenti inşa edilmiş hər bir elementlərlə tanış oldu, hətta, təzə salınmış asfalt yolda nəqliyyatı özü idarə etdi və böyük razılıqla xeyir-duasını verdi.

**Şəhər ağsaqqalı, hamının sevimlisi, nəcib və xeyirxah insan olan Kamil Fətəliyevlə** görüşümüzdə o tam səmimiyyəti ilə qeyd etdi ki, belə bir layihəni keçmiş sovetlər birliyində ərsəyə gətirmək üçün ən azı 10 ilə yaxın vaxt tələb olunurdu. Bu gün nəvələrimizin sevincinin həddi-hüdudu yoxdur. Ən yeni üslubda attraksionlar balaca fidanların üzünü güldürür, ürəklərinə sevinc verir. Biz son dərəcə bu diqqət-qayğıya görə qədirbilən gəncəlilər adından ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarıq. Dövlət başçısının tapşırıq və tövsiyələrini yüksək səviyyədə, layiqincə və az bir zaman kəsiyində belə əzəmətli layihəni nümunəvi yerinə yetirdiyinə görə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə sağ ol deyirik.

**Uzun müddət tikinti işlərinə rəhbərlik etmiş, ixtisasca memar olan, el ağsaqqalı, sadə, təvazökar insan İsa Musayev,** yüksək əhval-ruhiyyə ilə istirahət etdikləri parkda, yanındakı həmyaşıdları ilə birgə məni suala tutdu: "Kim deyir ki, çınqıllı-qumlu, boz torpaqlarda gül-çiçək, ağac əkmək, daşlı-qayalı yöndəmsiz, quru səhraya bənzər yerlərdə park salmaq olmaz, gülüstan yaratmaq olmaz, qoy gəlsin Gəncəyə gözləri ilə görsün bu möcüzələri.

Doğrudan da mübaliğəsiz demək olar ki, əsrarəngiz təbiəti, füsunkar gözəlliyi, təravətli görkəmi, maraqlı dizayn və milli elementləri ilə zəngin olan bulvar kompleksi on minlərlə qədirbilən gəncəlilərin və bölgə sakinlərinin sevimli bir güşəsinə-ecazkar istirahət zonasına çevrilmişdir.

Böyük fərəh hissi elə demək olar ki, artıq Gəncəyə dünyanın hər yerindən saysız-hesabsız qonaqlar, turistlər gəlir, yüksək qonaqpərvərliklə qarşılanır, xoş təəssüratla ayrılırlar. Təkcə son bir ildə xarici turistlərin sayı 4 min nəfəri keçib.

Bəli, hər gün, hər an Gəncədə yenilik, yüksəliş var. Hazırda yeni möhtəşəm layihələr başa çatmaqdadır. Belə ki, tikintisi yekunlaşmaq üzrə olan əzəmətli Gəncə Dövlət Filarmoniyası və Gəncə MALL Ticarət Mərkəzi, yaraşıqlı yeraltı keçidlər, yeni ecazkar 5 ulduzlu otel bu il istifadəyə veriləcək. Gəncə Dövlət Filarmoniyasının memarlıq üslubu sözün əsl mənasında, şəhərin zəngin arxitekturası ilə həmahənglik yaradaraq, unikal bir mənzərə yaratmışdır. 1,4 hektar ərazidə inşa olunan bu möhtəşəm kompleksdə 1200 nəfərlik konsert zalı, iki kinoteatr, açıq havada estrada meydanı, kafe, restoran, 200 avtomobil üçün 2 mərtəbəli yeraltı dayanacaq və digər xidmət sahələri ilə ən yüksək səviyyədə xidmət göstərməyə imkan yaradacaq. Tikinti işlərinin əsas hissəsi yerinə yetirilib, elektrik və daxili su xətləri çəkilib. Yarımstansiya, qazanxana və nasosxana tikilib, havalandırma sistemi qurulub. İki il əvvəl inşasına başlanılan 80.000 kvadratmetr ərazini əhatə edən Gəncə MALL-ın tikintisi ilə bağlı işlərin təxminən 90%-i yekunlaşıb. Tikintisində 700 işçinin çalışdığı mərkəz fəaliyyətə başladıqdan sonra burada 2000-dən cox yeni iş yeri açılacaq. 8 mərtəbəli Gəncə MALL-ın 3 mərtəbəsi yeraltı avtomobil dayanacağıdır. Burada əyləncə mərkəzləri, supermarket, kinoteatrlar fəaliyyət göstərəcək, dünyanın brend məhsulları təklif olunacaq. Bir azdan sonra Heydər Əliyev prospekti ilə Həsən Əliyev küçəsinin kəsişməsində avtomobillərin və piyadaların hərəkət etməsi üçün mövcud olan çətinliklər də aradan qaldırılacaq. Adıçəkilən ünvanda inşa olunan yeraltı keçid avtomobillərin və piyadaların rahatlığına, təhlükəsizliyinə xidmət edəcək. Layihəyə əsasən 3 çıxışı olan keçid Gəncə Dövlət Universitetinin əsas binasını, Şah Abbas Məscidi və Gəncə MALL Ticarət Mərkəzini birləşdirəcək. Keçidlərin tikintisində milli arxitektura elementlərindən geniş istifadə olunmaqla yanaşı qərb memarlığına daha çox üstünlük verilmişdir. Bu ərazidə keçidin inşası şəhər sakinləri tərəfindən böyük razılıqla qarşılanmışdır.

**Rasim Hüseynov, universitetin müəllimi:** "Burda əvvəllər çox çətin idi gediş-gəliş. Ona görə ki, nəqliyyat vasitələri çox idi, əhalinin hərəkətində çətinlik vardı. Yeraltı keçidin inşası əhalinin tam rahatlığını təmin edəcək. Şəhərə və sakinlərə sonsuz diqqət və qayğı göstərən ölkə Prezidenti cənab İlham Əliyevə və onun tövsiyələrini ləyaqətlə icra edən şəhər rəhbərinə minnətdarıq".

**Mətanət Rzayeva, şəhər sakini:** "Bu keçidin tikintisi biz müəllimləri, sakinləri həddindən artıq sevindirir. Çünki mən bu yaxın ərazidə yaşayıram. Hər gün gediş-gəliş zamanı maşın sıxlığı bizə çətinlik yaradırdı. Bu layihənin icrasına görə gecə-gündüz çalışan əsl qurucu, şəhər rəhbəri Elmar Vəliyevə minnətdarıq".

Gəncədə Heydər Əliyev prospekti ilə Cavad xan küçəsinin kəsişməsində daha bir keçid inşa olunur. Keçidin Cavad xan küçəsi və yeni tikilən filarmoniyanın qarçısına çıxışları olacaq. Bununla da şəhərdəki keçidlərin sayı 5-ə çatacaq.



Şəhərin arxitekturasına gözəllik qatan layihələrdən biri də Gəncədə Heydər Əliyev prospekti ilə Cavad xan küçəsinin kəsişməsində tikilən 5 ulduzlu oteldir. 7 mərtəbəli olan otelin ümumi sahəsi 2 min 800 kv. metrdir. Otelə gələn qonaqlar 33 otaqdan arzuladıqlarını seçə biləcəklər. Oteldə konfrans zalı, kafe-bar, restoran və s. fəaliyyət göstərəcək. Mükəmməl infrastruktura malik bina müasir avadanlıqla təchiz olunur. 2017-ci ildə istifadəyə verilməsi nəzərdə tutulan bu tikililərin hər biri öz arxitektura quruluşu, dizaynı və interyeri ilə seçilir. Şübhəsiz ki, bütün bunlar qədim Gəncənin gözəlliyini daha da artıracaq.

Bundan başqa Gəncə şəhərinə yağan yağış sularının ötürülməsi üçün xətlərin çəkilməsinə də başlanılıb. İlkin olaraq Heydər Əliyev prospekti və Nizami prospektində işlər sürətlə gedir. Yagış suları prospektə qoyulan borular vasitəsi ilə Gəncə çayına töküləcək. Eyni zamanda qeyd olunan prospektlərin asfalt qatı daş örtüklə əvəzlənəcək.

Əminliklə demək olar ki, füsunkar gözəlliyə malik bu möhtəşəm layihələrin, istirahət və ticarət mərkəzlərinin yaradılması sosial layihə olmaqla yanaşı, həm də dünyada hökm sürən iqtisadi böhran zamanı Azərbaycanda həyata keçirilən sosial siyasətin uğurla davam etməsindən xəbər verir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**





